1_Layout 1 28.01.2023 10:33 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 2 (641)

31 yanvar 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# SADİQ DOST, ƏSL TƏRƏFDAŞ

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Sadiq dost, əsl tərəfdaş" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



### Beynəlxalq təşkilatlara sədrlik missiyası İlham Əliyevin liderlik keyfiyyətlərinə verilən yüksək qiymətdir

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan son illərdə dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.

Çünki Azərbaycan bölgədə təhlükəsizlik və davamlı iqtisadi imkanlara malik ölkə kimi çıxış edir, ortaya qoyduğu siyasi iradə, təşəbbüskarlıq ilə region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Bütün bunlar ölkənin lideri İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət kursunun yaratdığı reallıqdır.

### Müstəqil xarici siyasətin yaratdığı reallıq

Azərbaycanın son illərdə beynəlxalq imicinin daha da yüksəlməsi, respublikamızın ən ali səviyyəli tədbirlərdə ön cərgədə iştirakı, qlobal miqyasda ölkəmizin rəyinə hörmətlə yanaşılması və digər belə qürurverici olaylar, əlbəttə ki, hansısa təsadüfün nəticəsi deyil. Bu nailiyyətlər birbaşa olaraq İlham Əliyevin nümayiş etdirdiyi əzmkarlığın, rəhbərlik qabiliyyətinin, yüksək diplomatik bacarığının, qətiyyətli siyasətinin məntiqi nəticəsidir, desək, yanılmarıq.

İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirdi. İndi qalib ölkə kimi Azərbaycan oyun qaydalarını özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə əməkdaşlıq təkliflərini açıq şəkildə ortaya qoyur.

Bu gün dünya xəritəsində yer tutan heç də hər bir dövlət Azərbaycan kimi müstəqil xarici siyasət yürütmək iqtidarında deyil. Diqqət etsək görərik ki, həqiqətən də Azərbaycanın xarici siyasətinin uğurları kifayət qədərdir. Ölkəmizin BMT-dən sonra dünyanın ikinci ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatına və Türk Dövlətləri Təşkilatına sədrlik etməsi və bu ilin yanvar ayından isə İqtisadi Əməkdaşlıq Təşkilatına rəhbərliyin icrasına başlaması Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi və ölkəmizə, onun lideri İlham Əliyevə inam və etibarın bariz təcəssümüdür.

Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər.

### Etimad və inamın göstəricisi

Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin quruma sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Eyni zamanda Qoşulmama Hərəkatına sədrlik Azərbaycana xüsusilə COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal rol oynamağa imkan yaratdı. Əlbəttə ki, bu prosesdə Azərbaycan dövlətinin və İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynadı.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha 1 il artırılması ölkəmizə olan etimadın, dövlətimizin beynəlxalq münasibətlər sistemində artan nüfuzunun göstəricisidir. Məlumdur ki, sədrlik müddətinin uzadılması ilə bağlı təsisata üzv dövlətlər müraciət ünvanlayıb və Azərbaycan tərəfi bu müraciəti müsbət cavablandırıb. Bu, eyni zamanda Azərbaycan Prezidentinin qlobal liderlik keyfiyyətlərinə verilən yüksək qiymətdir.

Pandemiyanın törətdiyi fəsadlara baxmayaraq, Azərbaycan vəziyyətə çevik və adekvat reaksiya verərək Qoşulmama Hərəkatına sədrliyini müvəffəqiyyətlə davam etdirdi. Yəni Azərbaycanın bu nüfuzlu təşkilata sədrliyi çox mürəkkəb dövrə təsadüf etdi. Qısa müddətdə Prezident İlham Əliyev COVID-19 ilə mübarizə sahəsində qlobal təşəbbüslər irəli sürdü. BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi, BMT İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölgüsünə dair qətnamənin qəbul edilməsi və sair dünyada böyük rəğbətlə qarşılandı. Bu, ilk növbədə, Qoşulmama Hərəkatının imicinin möhkəmləndirilməsinə böyük töhfə idi.

### Türk dünyasının ən ali mükafatı

Qoşulmama Hərəkatından əlavə, Azərbaycan 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına (əvvəlki adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası) da uğurla sədrlik etdi. Ölkəmiz sədrliyi dövründə türkdilli ölkələr arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərdi.

Bu təşkilata sədrliklə bağlı Azərbaycan Prezidentinin fəaliyyətinə ən yüksək dəyər ötən il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşündə verildi. Dövlət Başçıları Şurasının iclasını açan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün qonaqları İstanbulda salamladı, Zirvə görüşünün əlaqələrimizdə yeni mərhələ açacağına əminliyini ifadə etdi: "Sədrliyi təhvil aldığımız Can Azərbaycana, pandemiyaya baxmayaraq, həyata keçirdiyi uğurlu fəaliyyətlər münasibətilə təbriklərimi çatdırıram".

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edərək dedi: "Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev. Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün Türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır".

Bu mükafat Azərbaycan Prezidentinin xarici siyasətinə, dost və qardaş ölkələrlə qurduğu münasibətlərə verilən ən yüksək dəyər idi.

### İƏT-ə sədrlik - Azərbaycanın diqqət yetirəcəyi məsələlər

Bu ildən isə ölkəmiz İƏT-ə sədrlik missiyasını yerinə yetirəcək. Təbii ki, təşkilatın strategiya və proqramlarının uğurla icra olunması, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi, iqtisadiyyat, enerji, nəqliyyat, gömrük, sərhəd-keçid məntəqələri, ədliyyə, turizm və səhiyyə sahələrində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi Azərbaycanın sədrlik dönəmində diqqət yetirəcəyi məsələlər olacaq.

Bütün bunlar Azərbaycana və onun rəhbəri İlham Əliyevin xarici siyasət kursuna verilən ən yüksək qiymətdir. Bununla yanaşı, Azərbaycan Prezidentinin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslərlə görüşləri isə həm İlham Əliyevin, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Yanvarın 23-də Daxili İşlər Nazirliyində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının 2022-ci ildəki fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik 2022-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları və Daxili Qoşunlar tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib.

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2022-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 36.494 cinayət qeydə alınıb və onlardan 95.2 faizi daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olub. Cinayətlərin 83.4 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 89.7 faizinin açılması təmin edilib. Ayrı-ayrı hüquqazidd əməllərin açılmasının nəticələri də yüksək olmaqla ağır və xüsusilə ağır cinayətlərin 85.3, qeyri-aşkar şəraitdə baş verənlərin 85.7, şəxsiyyət əleyhinə olanların 98.2, mülkiyyət əleyhinə olanların 81.8 faizi açılıb.

Prokurorluq orqanları ilə birgə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən keçmiş illərdən bağlı qalmış 368 cinayət üzrə təqsirli şəxslər müəyyən edilərək məsuliyyətə cəlb olunublar.

O da qeyd olunub ki, müqayisə edilən dövrə nisbətən 2022-ci ildə şəxsiyyət əleyhinə olan cinayətlər 2.4, o cümlədən qəsdən adam öldürməyə cəhdlər 13, qəsdən sağlamlığa ağır zərər vurmalar 5, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 17.6, ailə münaqişəsi zəminində törədilənlər 2.4, mal-qara oğurluğu 21.3 faiz azalıb.

Həyata keçirilmiş əməliyyat tədbirləri ilə 251 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 202 şəxs cinayət məsuliyyətinə cəlb olunub, axtarışda olan 557 təqsirləndirilən şəxsin tutulması təmin edilib.

Qeyri-leqal dövriyyədən 2021-ci illə müqayisədə 373 kiloqram çox – 3 ton 418 kiloqram narkotik vasitənin çıxarıldığını, 172 tondan artıq narkotik xassəli bitkilərin aşkarlanıb məhv edildiyini bildirən nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Eyni zamanda, cinayətkarlıqla mübarizədə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakını, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatın keçirildiyini vurğulayaraq fəal mövqe sərgiləyən bütün şəxslərə təşəkkür ifadə edib.

Yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin zəruriliyinə də toxunan nazir əsas diqqətin ölkədə narkotiklərə olan tələbatın azaldılmasına yönəldilməsinin əhəmiyyətini nəzərə çatdırıb. Bu vacib sahədə işin vətəndaş cəmiyyəti və media nümayəndələri, sosial şəbəkə istifadəçiləri ilə əlaqəli aparılmasına göstəriş verib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə maneə yaradan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını, həmin pozuntuları törədən nəqliyyat vasitələrinin yol hərəkətindən kənarlaşdırılmasını tələb edib.

*Davamı 2-ci səhifədə.*

2_Layout 1 27.01.2023 19:16 Page 1



# Nazir Vilayət Eyvazov Qəbələdə vətəndaş qəbulu və sıra baxışı keçirib









Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 25-də və 26-da Qəbələ Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.

Nazir əvvəlcə Qəbələ şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından qəbula gələn 104 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Qəbələdə yerləşən hərbi hissəsinə gedib. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib. Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Sonra Daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 34-ü Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvü olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 131 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə.*

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu, o cümlədən vətəndaşların qəbulu və minlərlə müraciətinin araşdırılması zamanı qaldırılan məsələlərin əksəriyyətinin qanunauyğun həllini tapdığını, "102" Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış 3 milyona yaxın müraciətə çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 88.3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini nəzərə çatdırıb.

İclasda nazirliyin struktur qurumlarının və ərazi polis orqanlarının rəisləri hesabat məruzəsi ilə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran



Daxili işlər naziri 2022-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdıraraq onların aradan qaldırılması yolları və qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıq və tövsiyələrini verib. Həmçinin Azərbaycan Respublikasına xidmətə görə şəxsi heyətə təşəkkür edib.

General-polkovnik V.Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələrin icrası bundan sonra da əzmlə davam etdiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

# VETERANIMIZ YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK EDİLİB

Yanvarın 14-də Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili Qoşunların veteranı, istefada olan polkovnik-leytenant Namiq Yüzbəyovla görüşüb. O, veteranı yubileyi - 70 yaşının tamam olması münasibətilə qoşunların komandanlığı və şəxsi heyəti adından təbrik edərək, həyatında uğurlar, cansağlığı və ailə səadəti arzulayıb. Bildirilib ki, N.Yüzbəyov sıralarımızda uzun illər peşəkar hərbi həkim kimi ləyaqətlə xidmət edərək şəxsi heyətin sağlamlığı keşiyində öz bilik və bacarığını əsirgəməyib. Tibb sahəsi üzrə xidmət etdiyi vəzifələrdə təcrübəli mütəxəssis, vətənpərvər zabit olaraq uğurlu fəaliyyət göstərib. Veteranın həkim peşəsinin şərəfini daim uca tutduğu, hərbi qulluqçularımıza qayğı ilə yanaşdığı, silahdaşlarının hörmətini qazandığı xüsusi vurğulanıb.

General-mayor İ.Muradov Birinci Qarabağ müharibəsi zamanı ön cəbhədə respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda döyüşən hərbi qulluqçularımızın tibb təminatının təşkilində, qoşunların tibb xidmətinin formalaşmasında, Hərbi Qospitalımızın inkişafında N.Yüzbəyovun təqdirəlayiq əməyinin olduğunu, eləcə də tibb sahəsi üzrə kadrların peşə hazırlıqlarının artırılmasına nəzərəçarpan töhfələr verdiyini deyib.

N.Yüzbəyov yubileyi münasibətilə səmimi təbrikə, səslənən xoş sözlərə və şəxsinə göstərilən hörmətə görə qoşunların komandanlığına dərin minnətdarlığını bildirib. Daxili Qoşunların veteranı olması ilə qürur duyduğunu söyləyib.

Yubilyara Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının təbrik məktubu və gül dəstəsi təqdim



olunub. Görüşün sonunda xatirə şəkli çəkdirilib.

Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov görüşdə iştirak edib.

**Yalçın Abbasov**

# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, yanvar ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və



mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu



yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.

Bu sahədə verilən tapşırıqların icrası ilə əlaqədar olaraq çağırışçıların xidmətə qəbulu, yerləşdirilmələri, hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanmaları, o cümlədən, onların hərbi xidmətə tədricən uyğunlaşmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. Bunun üçün mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Çağırış qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verdi ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-psixonevroloq, həkim-terapevt, baş ordinator-kardioloq, həkim-stomatoloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilib. Müayinələrdən keçən çağırışçılar barədə hərbi-həkim komissiyası tərəfindən rəylər verilib və yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər. Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.







Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**Mətbuat xidməti**

*Şəhidlərimiz*

# ŞƏRƏFLİ DÖYÜŞ SINAĞINDA ÖMÜR FƏDA EDƏRƏK ÖLÜMSÜZLÜK QAZANDI...

Azərbaycan hərbi zəfər qürurunu yaşayan ölkədir. Qalibiyyət zirvəsinə ucalmaq üçün xalqımız qurbanlar verib, müharibə acılarından keçib, çətin sınaqlara sinə gərib. Dövlətimiz işğalçı ölkə üzərində möhtəşəm qələbəsi ilə tarixi ədaləti bərpa edib. İgid oğullarımız döyüş meydanında düşməni darmadağın etməklə Xocalı soyqırımının, şəhidlərimizin, sağlamlığını itirmiş qazilərimizin, doğma yurdlarından didərgin salınmış soydaşlarımızın, viran qoyulmuş torpaqlarımızın, vandalizmə məruz qalmış müqəddəs məkanlarımızın qisasını alıblar.

Biz həmişə qələbə sözünü yazanda və söyləyəndə, onun böyük mənası haqqında düşünəndə, ilk növbədə, şəhidlərimizi xatırlayırıq. Ayrı-ayrı şəhər, qəsəbə, kəndlərin sakinləri, müxtəlif ailələrin yetirmələri olmuş, yaşları, peşələri, vəzifələri, rütbələri, xarakterləri, arzu və diləkləri fərqlənmiş bu oğulları dövlətçilik təfəkkürü, həmvətən əqidəsi, silahdaş məsləyi, döyüş ruhu, şəhadətə inam birləşdirib. Onların adı fəxarətdir, ruhları mübarəkdir, doğmaları bizlərə əmanətdir.

44 günlük Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın siyahısında çavuş Fətəliyev Emil Mayis oğlunun da adı var. Şəhidin ailəsi və silahdaşları ilə əlaqə saxladım, onların köməyi ilə məqalə üçün gərəkli olan məlumatları topladım. Bəzi kitablarda və kütləvi informasiya vasitələrində şəhidin hərbi xidməti, habelə döyüş yolu barədə müəyyən səhvlərə yol verilib. Ailəsi məndən xahiş etdi ki, Emilin harada şəhid olduğunu dərindən araşdırım və məqalədə bu fakt dəqiq yazılsın.

Emil 1992-ci il oktyabrın 30-da Qax rayonunun Qorağan kəndində anadan olub. Mayis Fətəliyev və Sevda Fətəliyevanın qurduqları ailənin sonbeşiyi olan Emilin Qurban adlı qardaşı, Nübar adlı bacısı var. Qurban Fətəliyevin verdiyi məlumata görə, bu nəsildə müharibə ağrı-acıları uzun illər əvvəl də yaşanıb. Belə ki, atasının əmiləri 1941-1945-ci illərdə alman faşist ordusuna qarşı döyüşlərə qatılıblar, onlardan heç biri müharibədən geri qayıtmayıb.

Ailənin böyük övladı olan Qurban kiçik qardaşının ömür yolu haqqında ətraflı danışdı, xatirələrini bölüşdü. Bildirdi ki, Emil şəhid Səfa Rəhimov adına Qorağan kənd tam orta məktəbində 11 il təhsil alıb. Orta təhsil attestatında əksər fəndən biliyi "yaxşı" qiymətləndirilib, fiziki tərbiyədən isə "əla" qiymət yazılıb. Söylədi ki, Emilin hələ yeniyetmə yaşlarından futbola həvəsi vardı, bacarıqlı oyunçu olub.

Qurbanın dediyinə görə, Emil xasiyyətcə mülayim, təvazökar, təmkinli, istiqanlı, hər kəslə dil tapa bilən, böyüklərə hörmətlə yanaşan, uşaqlara münasibətdə mehriban gənc idi. Vacib bir qərar qəbul edərkən öncə atası ilə mütləq məsləhətləşib. Valideyn xeyir-duasını uca tutub. Doğmalarına və



dostlarına qayğı göstərib.

2010-cu ilin oktyabr ayında Emil müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 16076 saylı hərbi hissəsində hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin aprel ayında ehtiyata buraxılıb.

2016-cı ilin may ayının 7-də öz arzusu ilə Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Müddətdən artıq həqiqi hərbi xidməti 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində keçib. Xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun heyət nəfəri, istehkamçı yarımqrupunun radiotelefonçu-istehkamçısı, istehkamçı yarımqrupunun heyvan təlimçisi-istehkamçısı və istehkamçı yarımqrupunun istehkamçı-radiotelefonçusu vəzifələrinə təyin edilərək nümunəvi xidməti ilə komandanlığın etimadını doğruldub. Dəfələrlə komandirləri tərəfindən mükafatlandırılıb, silahdaşlarının hörmətini qazanıb. Təyin edildiyi vəzifələrin xüsusiyyətlərinə dərindən bələd olub, peşə hazırlığının təkmilləşdirilməsi yönündə daim çalışıb. Qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib.

Vətən müharibəsi iştirakçısı, 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin xüsusi təyinatlı bölməsinin komandiri kapitan Xəqani Məmmədov Emilin xidmət və döyüş yolu barədə suallarımı cavablandırdı: "Emili 2016-cı ildən tanıyırdım, o vaxt 17072 saylı hərbi hissədə xidmət edirdim, komandiri olduğum atəş təminatı qrupuna gəldiyi ilk gündən xidmətə can yandırıb. İntizamlı, yüksək döyüş hazırlığına malik hərbi qulluqçu olub. Hərbi kollektivdə tez ünsiyyət quran idi, yoldaşlarından köməyini heç vaxt əsirgəməzdi. O, dəstədən bir nəfər hərbi qulluqçu ilə birlikdə Azərbaycan Respublikasının Minatəmizləmə Dövlət Agentliyinin istehkamçı kursuna seçilmişdi. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra dəstənin istehkamçı yarımqrupunda xidmətini davam etdirdi.

Gürcüstanla sərhəddə qonşu ölkənin bir qrup vətəndaşı tərəfindən törədilən təxribatın qarşısının alınması məqsədilə xüsusi əməliyyata, Gəncə şəhəri və Göygöl rayonu ərazilərində koronavirus pandemiyası ilə bağlı karantin rejiminin, habelə Bakıda keçirilən mötəbər idman yarışlarında təhlükəsizliyin təmin olunması üzrə xidmətə cəlb edilib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqda Emil ilk gündən döyüşlərə qatılıb. Onun döyüş yolu Kəlbəcər (Murovdağ silsiləsinin bir sıra yüksəklikləri istiqamətində), Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərindən keçib. Müdafiə Nazirliyinin və qoşunların xüsusi təyinatlıları ilə birgə "F" dəstəsinin tərkibində vuruşub. Həm istehkamçı kimi döyüş tapşırıqlarını yerinə yetirib, həm də avtomat silahı ilə düşmənə atəş zərbələri endirib. Ön cəbhənin qeyd etdiyim istiqamətlərində torpaqlarımızın işğaldan azad olunmasına öz layiqli töhfəsini verib.

Son döyüşündən əvvəl mənimlə söhbət edərkən böyrəklərinin möhkəm ağrıdığını dedi, soyuq hava şəraiti onun sağlamlığına mənfi təsir göstərmişdi. Mən təklif etdim ki, təxliyyə olunsun, müalicə üçün qospitala getsin. Bildirdi ki, yox, hələ gücüm var, bu tapşırığa da gedim, sonra səhhətimin vəziyyətinə baxaram.

Hücuma hazırlaşdığımız strateji əhəmiyyətli 932 saylı yüksəklik mütləq ələ keçirilməli idi. Bizim digər bölmələrin təminat yollarına düşmən həmin yüksəklikdən nəzarət edirdi. Xocavənd rayonundakı Azıx mağarasından cənub-şərqdə yerləşən bu yüksəkliyə yiyələnmək Şuşaya doğru hücum əməliyyatının təşkili üçün də vacib idi. Yüksəkliyin ətrafına çatanadək işğalçılar bizi aşkarlaya bilmədilər. Çətin döyüş olsa da, yüksəkliyi ələ keçirdik. Düşmən xeyli sayda canlı qüvvə itirdi, onların arasında yüksək rütbəli zabitlər də vardı. Təcavüzkarın avtomobil və zirehli texnikalarını, müxtəlif növ silah-sursatını qənimət götürdük. Hətta bir "KamAz" avtomobili sursatla dolu idi. Yüksəkliyi itirdikdən sonra ermənilər oranı artilleriya və tanklardan atəşə məruz qoydular. Mərmilərdən biri Emilin və digər döyüşçü Etiramın bir neçə metrliyində partladı, aldığı qəlpə yaralarından o, oktyabrın 22-də şəhid oldu, silahdaşı isə həmin yerdən yaralı olaraq çıxarıldı. Şəhidin nəşini mən və 4 nəfər hərbi qulluqçu yaxınlıqdakı kənd istiqamətində təxliyyə etdik".

Kürdəmir rayonunun Qarasaqqal kəndində yaşayan, Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Elnur Cəfərov 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkam yarımqrupunun komandiri olub. Tabeliyində xidmət etmiş döyüşçü haqqında bunları söylədi: "Emil istehkam yarımqrupunda öz işinin mütəxəssisi idi, vəzifə borcuna məsuliyyətlə yanaşırdı, tə-



limlərdə fəallığı ilə fərqlənirdi. Xidmətə cəlb olunarkən verilən tapşırıqları ayıq-sayıqlıqla yerinə yetirirdi.

Müharibə zamanı peşəkar xüsusi təyinatlı kimi döyüşüb, vətənpərvərlik nümunəsi nümayiş etdirib. Mən oktyabrın 9-da yaralandığıma görə silahdaşlarımdan ayrılmışam. Emil mənim yaddaşımda etibarlı yoldaş və ləyaqətli hərbi qulluqçu kimi qalıb".

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun snayper yarımqrupunun heyət nəfəri çavuş Etiram Orucov döyüşçü yoldaşı haqqında maraqlı məqamları danışdı: "Emilin müsbət keyfiyyətləri barədə çox söz demək olar. Xeyirxah, dürüst insan idi. Hərbçi şərəfini uca tuturdu. Silahdaşlarının xeyir-şərindən qalmazdı.

Vətən müharibəsi zamanı ilk gündən son döyüşünədək hərbi anda sadiq qaldı. Minaaxtaran kimi öndə gedirdi, döyüşçülərə yol açırdı, düşmənə pusqu quranda da peşə bacarığından məharətlə istifadə edirdi. Ağır döyüşlərdə dəfələrlə mətinlik göstərdi. Evlə telefonla danışanda ata-anası kövrəlirdilər, onlara deyirdi ki, hər şey yaxşı olacaq.

932 saylı yüksəklik işğaldan azad edildikdən sonra ikimiz də orada növbə ilə səngər qazırdıq. Birdən aramıza mərmi düşərək partladı, çənəmin altından çoxlu qan axırdı, qırağa çəkilərək yerimi dəyişdim. Emil qolunu tutub kömək çağırdı. Kömək gələnədək o, çox qan itirmişdi. Təxliyyə avtomobili o əraziyə gələ bilmirdi. Emilin həyatını xilas etmək mümkün olmadı".

İmişli regional "Asan xidmət" mərkəzi tərəfindən tərtib olunan 25 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Emilin 22 oktyabr 2020-ci ildə Füzuli rayonunda hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr, böyrək travması səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuzun nəşi oktyabrın 24-də ailəsinə gətirilib və həmin gün Qorağan kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E.Fətəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Emilin qardaşı Qurban Müdafiə Nazirliyinin hərbi qulluqçusu kimi 44 günlük Vətən müharibəsində iştirak edib. Hazırda o, Qax Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyünün polis baş serjantı olaraq ictimai asayişin və təhlükəsizliyin keşiyində dayanıb. Qurban qardaşının xatirəsini yaşatmaq üçün qızına Emilya adını qoyub. Bununla yanaşı, bibisi oğlunun övladı şəhidin adını daşıyır.

Qorağan kəndinin sakinlərindən ərazi bütövlüyümüz uğrunda döyüşlər zamanı 5 nəfər şəhid olub, 2 nəfər itkin düşüb.

Qorağan kənd tam orta məktəbinin 7-ci sinfinə şəhidin adı verilib. Fətəliyevlər ailəsinin yaşadığı evdə Emilin xatirə guşəsi yaradılıb.

Səhər Şıxəli Manafın "Zəfər tarixinin qəhrəmanları - Qax şəhidləri" və Xavər Əfəndiyevanın "Qaxdan Qarabağa gedən yol" kitablarında şəhidin döyüş yolu işıqlandırılıb. Döyüşçüyə şeir də həsr olunub. "Azad Azərbaycan" televiziya kanalında igid xüsusi təyinatlı haqqında süjet göstərilib.

Nişanlı olmuş Emil xoşbəxt ailə qurmağı arzulayırdı. Bu arzusuna qovuşmasa da, xalqının aydın səma altında dinc və xoşbəxt yaşaması üçün həyatını qurban verdi.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ QULLUQÇULARIMIZ ŞUŞA ŞƏHƏRİNİN ETİBARLI MÜHAFİZƏSİNİ TƏMİN EDİRLƏR

44 günlük Vətən müharibəsinin qalibiyyət rəmzi - Şuşa şəhərinə ezamiyyətim zamanı ilk dəqiqələrdən hərbi qulluqçularımızın polislə bərabər xidməti ayıq-sayıq təşkil etdiklərinin şahidi oldum. Zəngin tarixə, gözəl təbiətə malik olan Şuşanın əvvəlki əzəmətini qaytarmaq məqsədilə şəhərdə sürətlə quruculuq və bərpa işləri aparılmaqdadır. Daxili Qoşunların xüsusi təyinatlı bölmələrinin şəxsi heyətinin bir qismi mədəniyyət paytaxtımızın etibarlı mühafizəsi, həmçinin şəhərin girişində, Laçın-Xankəndi yolunun üzərində erməni separatçılarının törətdikləri ekoloji terrora qarşı dinc aksiya iştirakçılarının təhlükəsizliyi-








nin təmin olunması üzrə vəzifələri yüksək peşəkarlıqla həyata keçirir.

25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant İsmayıl Fərmanov Şuşa şəhərinin etibarlı mühafizəsinin təmin edilməsi üçün şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O qeyd etdi ki, şəxsi heyətin postlarda ayıq xidmət aparması üçün lazımi şərait yaradılıb. Postlarda daimi rabitə əlaqəsi mövcuddur və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək üçün idarəetmə məntəqəsi fəaliyyət göstərməkdədir. Xidmətin keyfiyyətlə təşkili və aparılması sutka ərzində məsul şəxslər tərəfindən yoxlanılır.

Hərbi hissənin qərargahında döyüş təlimi üzrə zabit mayor Elvin Məmmədovla bərabər xidmətaparma yerlərində mövcud şəraitlə tanış olduq. Quraşdırılmış müasir modul tipli postlarda post rəhbərinin otağı, silah otağı, qurutmaxana, yeməkxana, şəxsi heyətin yataq otağı, yuyunma otağı və anbar mövcuddur. Postlar elektrik enerjisi, su və istiliklə fasiləsiz təmin edilir. Enerjinin verilməsində fasilə yarandıqda postlarda quraşdırılmış elektrik generatorları işə salınır. Şəxsi heyətin geyim əmlaklarının təmiz və səliqəli saxlanılması üçün paltaryuyan maşın, xörəklərin və ərzağın saxlanılması üçün soyuducu, xörəkləri qızdırmaq üçün elektrik soba, suyun qaynadılması üçün samovar, asudə vaxtın təşkili üçün televizor mövcuddur.

Xidmətaparma yerlərində olarkən post rəhbəri 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Həsən Qədirov xidmət barədə bizə məlumat verərək bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil olunub aparılır. Hərbi qulluqçular postlar cədvəlinə uyğun olaraq təlimatlandırıldıqdan sonra xidmət yerlərində növbələri dəyişdirilir. Xidmət müddətində hərbi qulluqçulardan ayıq-sayıq olmaları tələb olunur ki, müşahidə yolu ilə perimetr boyunca hərəkət edən nəqliyyat vasitələrini, insanları nəzarətdə saxlamaqla bərabər, postlarımızın etibarlı mühafizəsini təmin etsinlər və hər hansısa bir hadisə baş verərsə, döyüş hesabatına uyğun fəaliyyət göstərməyə həmişə hazır olsunlar. Kapitan H.Qədirov şəxsi heyətin istənilən hava şəraitində Vətən torpağını qorumaqdan və işğaldan azad edilmiş şəhərimizdə xidmət aparmaqdan qürur duyduğunu bildirdi.

Hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Elnur Cəfərov düşərgədə yerləşən postlarda xidmətin yüksək səviyyədə təşkil edilib aparılması üçün lazımi şəraitin yaradıldığını vurğuladı.





Əminliklə demək olar ki, xidmətə cəlb edilən şəxsi heyət nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır, bu uğurlu fəaliyyətdə komandir heyətinin bacarıqlı və səriştəli olması öz sözünü deyir.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 27.01.2023 19:06 Page 1



# XİDMƏTİ İTLƏRİN YETİŞDİRİLMƏSİ, TƏLİMİ VƏ XÜSUSİ HAZIRLIĞI DİQQƏTDƏ SAXLANILIR

Daxili Qoşunların qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti itlərdən geniş istifadə olunur.

67987 saylı hərbi hissədə xidməti ezamiyyətim zamanı xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması haqqında daha geniş məlumat əldə etmək məqsədilə qoşunların xidməti itlərin yetişdirmə məntəqəsində oldum.





Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi-müəllim mayor Pərviz Əliyevlə xidmətin təşkili barədə söhbət etdik. O, hazırda məntəqədə alman ovçarkası və Belçika malinuası cinsinə mənsub xidməti itlərin saxlanıldığını və onlardan müxtəlif profillər üzrə istifadə edildiyini qeyd etdi. Həmçinin əlavə etdi ki, itlərin təlimi xüsusi bacarıq və təcrübə tələb edir: “Hər itin öz təlimçisi var. Çünki itlə təlimçi biri-birinə adaptasiya olmalıdır. Təlimçi hər gün itlərin qidasına, təmizliyinə diqqət yetirir”.



Məntəqədə olan xidməti itlər müxtəlif istiqamətlərdə - post-patrul xidmətinin aparılması, qarovul və mühafizə xidməti, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların axtarılması və tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılması üzrə hazırlanaraq təlimlər keçirilir və zəruri hallarda xidmətdə istifadə edilir. Beynəlxalq əhəmiyyətli tədbirlərdə xidməti itlərdən geniş istifadə olunduğunu deyən məntəqə rəisi yaşayış və qeyri-yaşayış obyektlərində təhlükəsizliyin təmin olunması üçün partlayıcı maddələrin aşkar edilməsi üzrə xidməti itlərin hazırlandığını vurğuladı.

Mayor P.Əliyev günün nizam qaydalarına uyğun olaraq xidməti itlərə iki dəfə qulluq göstərildiyini söylədi: “Göstərilən qulluğa xidməti heyvanların yemlənməsi, suvarılması, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edim ki, xidməti heyvanların sağlamlığının qorunması vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılır, profilaktik baytarlıq tədbirləri vaxtlı-vaxtında həyata keçirilir”.

Qarşıya qoyulmuş tapşırıqların xidməti itlər tərəfindən müvəffəqiyyətlə yerinə yetirilməsi onlarla təşkil olunub keçirilən təlimlərin keyfiyyətindən birbaşa asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir.

Məlumat üçün qeyd edək ki, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi dəstələrinin heyvan təlimçiləri ixtisas hazırlığı üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə keçirilən məşğələlərə cəlb olunurlar.

Məntəqə rəisi keçirilən nəzəri və praktiki məşğələlərdə, eləcə də xidməti fəaliyyəti və nizam-intizamı ilə fərqlənən hərbi qulluqçuların adlarını da qeyd etdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - baş əsgər İmaməddin Şükrəmli, əsgərlər Cavid Budaqov və Tacəddin Şahmarlının qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiklərini, öz təcrübələrini yeni gəlmiş heyvan təlimçiləri ilə bölüşdüklərini bildirdi.

Son olaraq qeyd edək ki, məntəqədə heyvan təlimçilərinin peşə hazırlığının artırılması və xidməti itlərlə keçirilən təlimlərin təkmilləşdirilməsi yönündə görülən işlər müsbət nəticələrə zəmin yaradır.

**kapitan Xədicə Hacızadə**

# PERSPEKTİVLİ GƏNC HƏKİMLƏRİMİZ

Funksional diaqnostika şöbəsində həkim-laborant tibb xidməti kapitanı Nərgiz Hüseynzadə 1984-cü il sentyabrın 1-də



Bakı şəhərində anadan olub. 1991-2001-ci illərdə Bakı şəhərinin Səbail rayonunda yerləşən 49 saylı tam orta məktəbdə təhsil alıb. Orta təhsilini uğurla başa vuran Nərgiz 2001-ci ildə Azərbaycan Tibb Universitetinin Tibbi biologiya fakültəsinə qəbul olunub. 2005-2006-cı illərdə Bakı Şəhər Klinik Xəstəxanasında internatura kursu keçib.

Uşaqlıq illərini böyük sevgilə xatırlayan gənc həkim boş vaxtlarında mütaliə etməyi və musiqiyə qulaq asmağı xoşladığını nəzərimizə çatdırdı. Ədəbiyyatda ən çox sevdiyi janr isə detektiv janrıdır. Onun uşaqlıq arzularının içində ən böyüyü həkim peşəsinə yiyələnmək olub. O, bu arzusuna 2010-cu ildə çatıb. Belə ki, 2010-cu ildən 2015-ci ilə kimi mülki tibb mərkəzlərində həkim-laborant kimi fəaliyyət göstərən Nərgiz 2015-ci ildən bu günə kimi Daxili Qoşunların 12576 saylı hərbi hissəsində həqiqi hərbi xidmətdədir.

İlk gündən verilən tapşırıqların icrasına məsuliyyət hissi ilə yanaşan tibb xidməti kapitanı N.Hüseynzadə 2019-cu ildə Türkiyə Respublikasının Gülhanə Tədris və Araşdırmalar Xəstəxanasında xromotoqrafiya kursu keçib.

Hazırda ən müasir tipli avadanlıqla təmin olunan laboratoriyada (Cobas c 111) tam avtomat biokimyəvi analizatorunda 55 adda biokimyəvi müayinələr yerinə yetirilir. Cihazın üstünlükləri qapalı sistem olması, nəticələrin 15 dəqiqəyə hazırlanmasıdır, eyni zamanda, gün ərzində 50-dən çox xəstənin müayinəsini təmin edir: “Laboratoriyamızda yenilik olan bu cihazın əsas üstünlüyü xəstələrdən götürülən analizlərdən sıfır xəta ilə nəticə əldə etməyimizdir”.

Hərbi hissənin gənc və savadlı həkimlərindən biri də tibb hissəsinin həkim-diyetoloqu tibb xidməti baş leytenantı Alidə Hacıyevadır. O, 1990-cı il iyulun 26-da Rusiya Federasiyasının Amur vilayətində anadan olub. 1993-cü ildə ailəsi ilə birlikdə Azərbaycana köçən Alidə uşaqlıq və yeniyetməlik illərini doğma Vətənində yaşayıb. Orta təhsilini Bakı şəhər 72 saylı liseydə alıb, 2008-ci ildə liseyi uğurla başa vuraraq Azərbaycan Tibb Universitetinə qəbul olunub. İnternatura təhsilini Rusiya Federasiyasının Kuban Dövlət Tibb Universitetində dəri-zöhrəvi ixtisası üzrə alıb.

Ali təhsilini başa vurduqdan sonra bir müddət özəl tibb müəssisələrində çalışan gənc həkim, nəhayət 2017-ci ildə Daxili Qoşunların 12576 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə qəbul olunub. Hazırda həkim-diyetoloq kimi fəaliyyət göstərir.



Funksional vəzifələrinə məsuliyyət hissi ilə yanaşan tibb xidməti baş leytenantı A.Hacıyeva diyetoloq kimi stasionardakı xəstələrə həkimin diaqnozuna əsasən pəhriz nömrələri təyin edir. Onların düzgün, sağlam qidalanmaya riayət etmələri üçün tövsiyələrini verən həkim uzunömürlülüyün əsas səbəbinin qidalanma ilə əlaqəli olduğunu izah edir. Həmçinin, qospitalda yenilik olan, müasir texnologiya - ultrasəs kovitasiya aparatının sayəsində artıq çəkidən əziyyət çəkən hərbi qulluqçuların problemləri bir neçə seansa öz həllini tapır. Bu yeni aparat barədə məlumat verən həkim-diyetoloq çox effektli nəticələrin alına biləcəyini nəzərimizə çatdırdı.

Ultrasəs kovitasiya – piy yığıntılarının azaldılması proseduru və ya əməliyyatsız liposaksiya sayılır: “Kovitasiyanın təsiri ilə ultrasəs hərəkəti altında piy toxumalarının maye halına düşənə qədər parçalanması müşahidə olunur. Dağılmış məhsulların 90 faizi orqanizmdən limfa sistemi ilə, sonra qaraciyərlə xaric olunur. Yerdə qalan 10 faizi isə qan dövranı yatağı ilə absorbsiya olunur və orada triqleseridlər metobolizm nəticəsində qlükoza molekullarına çevrilir. Bu prosedur həftədə bir dəfə, 20 dəqiqədən 60 dəqiqəyə kimi keçirilə bilər”.

Hərbi hissənin komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov tərəfindən müsbət xarakterizə olunan gənc hərbi həkimlərimiz peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi istiqamətində səylə çalışırlar.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# İSTEDADLI MUSİQİÇİ VƏ İNTİZAMLI HƏRBİ QULLUQÇU

Musiqi insana mənəvi güc verən, onu əzmkarlığa həvəsləndirən, qələbəyə ruhlandıran incəsənət növüdür. Hərbi mövzuda musiqilər hərbi qulluqçulara vətənpərvərlik əqidəsinin aşılanmasında vacib rol oynayır, onların mübarizlik hisslərini daha da gücləndirir.

Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrində konsertmeyster gizir Əsgər Tağıyev dünyanı dərk edəndən bu günə kimi musiqi ilə yaşayır və yaradır. O, 1986-cı ilin oktyabr ayının 17-də Sumqayıt şəhərində anadan olub. 1993-cü ildən 2002-ci ilədək Sumqayıt şəhəri Y.Məmmədəliyev adına 31 saylı orta məktəbdə təhsil alıb. 1997-2002-ci illərdə Sumqayıt şəhəri Bülbül adına Uşaq İncəsənət Məktəbində musiqi təhsili alıb. Musiqiyə marağı olan Əsgər musiqiçi kimi yetişmək arzusunu reallaşdırmaq üçün 2002-ci ildə Soltan Hacıbəyov adına Musiqi Texnikumuna qəbul olunub. 2006-cı ildə zərb alətləri ifaçısı ixtisasını bitirərək, Daxili Qoşunların 17072 saylı hərbi hissəsində 2006-cı ilin aprel ayından 2007-ci ilin oktyabr ayınadək müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ilin may ayında “kiçik gizir” hərbi rütbəsi verilməklə Nümunəvi göstərici hərbi orkestrdə konsertmeyster vəzifəsinə təyin edilib.

Hərbi musiqiçi kimi fəaliyyət göstərməyi qarşısına məqsəd qoyan gizir Ə.Tağıyev bu gün orkestrdə xidmətdə olduğu üçün fəxr etdiyini bildirir. Özünü musiqisiz bir an belə təsəvvür etməyən müsahibim orkestrdə peşəkar ifaçıların olduğunu, zaman-zaman bu kollektivdə məşhur incəsənət xadimləri ilə çiyin-çiyinə çalışdığını xüsusilə vurğuladı. Peşəsinin bilicisi olmaqdan əlavə, o həm də intizamlı, xidmətə vicdanlı münasibətilə fərqlənən hərbi qulluqçu kimi xarakterizə olunur. Kollektivdə özünə hörmət qazanmağı bacarıb.



Daim öz üzərində çalışan, peşəkarlıq vərdişlərini təkmilləşdirən hərbi qulluqçumuza bundan sonrakı fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

# NÜMUNƏVİ XİDMƏT MƏSULİYYƏT HİSSİNDƏN İRƏLİ GƏLİR

10 ildir ki, Daxili Qoşunların sıralarında xidmət edən gizir Ziræddin Məmmədov vəzifələrini məsuliyyətlə, vicdanla icra edir. Hər zaman seçdiyi peşəsilə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.

O, 1988-ci ilin dekabr ayının 10-da Biləsuvar rayonunun Dərvişli kəndində doğulub. Biləsuvar rayonu Nemət Soltanov adına Dərvişli kənd orta məktəbinin məzunudur. 2006-2007-ci illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2008-ci ildən 2012-ci ilədək Astara Pedaqoji Kollecində Azərbaycan dili müəllimi ixtisası üzrə təhsil alıb. Təhsilini başa vurduqdan sonra 2013-cü ildən Daxili Qoşunların 64412 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Hazırda o, hərbi hissənin kimya əmlakları anbarlarının rəisi vəzifəsində xidmətini ləyaqətlə davam etdirir, öz üzərində daim çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.



Anbar rəisi olaraq anbarlarda saxlanılan maddi-texniki vəsaitlərin düzgün mədaxil-məxaricinə, onların buraxılması üzrə sənədlərin vaxtında tərtib edilməsinə, uçotun aparılmasına, daxili qaydalara riayət olunmasına, sanitar vəziyyətə, yanğından mühafizəyə və ümumilikdə, bütün təhlükəsizlik tədbirlərinin qorunub saxlanılmasına cavabdehdir.

Hərbi qulluqçumuz bildirdi ki, gün ərzində anbarlarda olan əmlakların dəqiq hesabatı aparılır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim olunur.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

## Türkiyə Ordusunun arsenalına yeni helikopter daxil edilib

TUSAŞ şirkəti Türkiyə Hərbi Hava Qüvvələrinə ilk T-70 çoxməqsədli helikopterini təhvil verib. “Poliqon” xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

T-70 indeksli çoxməqsədli helikopter dünyanın aparıcı aviasiya şirkətlərindən olan “Sikorsky”nin S-70i helikopterinin bazası və lisenziyası əsasında Türkiyədə hazırlanıb.



# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı gizir Zamin Əbdülhəsənova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı baş leytenant Fərid Novruzluya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş gizir Xanəli Nəcəfova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı baş gizir Natiq Cəfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Gündüz Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Rəhman Cəfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000